# Layihənin istiqaməti: Regionların sosial-iqtisadi inkişafının təşviq edilməsi

№ 9 (1137) 16 yanvar - 18 yanvar 2016-cı il

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA
KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİNİN
İNKİŞAFINA DÖVLƏT DƏSTƏYİ FONDU

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİNİN İNKİŞAFINA DÖVLƏT DƏSTƏYİ FONDUNUN MALİYYƏ YARDIMI İLƏ

(Əvvəli ötən sayımızda)

**Hər bir regionun inkişafının parametrlərinə diqqət yetirəndə təbii ki, abadlıqla, sosial durumla yanaşı, təhsil, mədəniyyət də diqqəti çəkir. Təbii ki, həm ölkəni, həm də onun bölgələrinin mədəni səviyyəsnini yüksək olmasfı, təhsilinin dünya standartlarına cavab verməsi ən vacib şərtlərdən biri olmaqla yanaşı, həm də ən çox dilə gətirilən istəkdi. Məhz təhsil, mədəniyyət bizim dünya millətləri aramındakı yerimizi müəyyən edir. Ona görə də Regionların İnkişafına Dair dövdət Proqramının əsas şərtlərindən biri də təhsilə, səhiyyəyə, mədəniyyətə, onun bazasının möhkəmləndirilməsinə xüsusi diqqət yetirilməsidi.**

nişləndirmək üçün müəyyən işlər görülmüşdü. Elə görülən işlərin nəticəsində də ötən il rayonun 53 ümumtəhsil məktəbində, həmçinin 16 məktəbəqədər tərbiyə müəssisəində müəyyən uğurlar əldə olunmuşdu. Konkret rəqəmlərlə ifadə etsək, həmin məktəblərin 11-ci sinfini bitirən 688 şagirdin hamısı məzu n attestatı ala bilmişdi ki, bu da müəyyən mənada müsbət göstəricidi. Həmin attestat alan şagirdlərin 3 nəfəri qızıl medala layiq görülmüş, 9 nəfəri xüsusi fərqləndirici şəhadətnamə ilə təltif olunmuşdu. Bütövlükdə isə ötən dərs ilinin yekunlarına görə məzunlardan 192 nəfəri ali məktəblərə qəbul olunmuşdular. Bu gün Neftçalada hər kəs təhsillə bağlı danışanda vurğulayır ki, ali məktəblərə qə-



# NEFTÇALA - 2015



**"... Sosial infrastruktur, digər layihələr icra edilir və biz növbəti illərdə yəqin ki, daha çox kənd yollarının bərpasına diqqət verməliyik. Bu proses də başlamış, ölkəmizdə geniş vüsət almışdır. Ancaq bildiyiniz kimi, bu, çox böyük vəsait tələb edən layihələrdir və zamana da ehtiyac vardır. Çünki kənd yollarımızın əksəriyyəti yararsız vəziyyətdə idi. Son illərdə bu sahəyə çox böyük vəsait ayrılır və çalışırıq ki, hər bir rayonda heç olmasa bir və ya iki böyük layihə icra edilsin. Ona görə hər bir rayonun kənd yollarının tam şəkildə bərpası bir qədər vaxt tələb edəcəkdir. Ancaq hesab edirəm ki, növbəti beş il ərzində, bəlkə də ondan da tez bütün kənd yolları qurulacaq, tikiləcəkdir.**

***Azərbaycan Respublikasının Prezidenti***
***İlham Əliyev***

Bu gün digər bölgələrimiz kimi, Neftçala rayonunda da diqqətə təqdim etdiyimiz təhsil, səhiyyə, mədəniyyət sahəsində müəyyən işlər görülməkdədi. Biz də rayonda olarkən həmin görülən işləri konkret faktlarla ifadəsini öyrənməyə çalışdıq. Əldə etdiyimiz bilgilərdlən məlum oldu ki, ötən il, yəni 2015-ci ildə Neftçala rayonunda təsil sahəsində əldə edilən uğurların kökündə "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası"nda öz ssözünü demişdi. Məhz bu bəlli strategiyaya uyğun olaraq rayon Təhsil Şöbəsi öz işini qurmuş və nəticədə də müəyyən uğurlara imza atılmışdı.

Belə ki, rayonda təhsilin səviyyəsini dövrün tələblərinə uyğun mərhələyə qaldırmaq, pedaqoji kollektivlərin, təhsil müəssisələrinin həm maddi-texniki bazasının, həm onların öz üzərlərində işləyib şagirdlərə daha çox bilik vermək imkanlarını artırmaq şəraitini gebul olunan neftçalalı məzunların 8 nəfəri 500, 15 nəfəri 600 baldan yuxarı nəticə göstərərək rayonun təhsil işçilərinin, müəllimlərinin, valideynlərinin üzünü ağ etmişdilər.

Onu da qeyd etmək yerinə düşər ki, ötən il Neftçala şəhərindəki 1,3 və 4 saylı orta məktəblərdə, həmçinin 2-ci Qaralı, Ərəbqardaşbəyli, Xolqaraşlı, Aşağı Qaramanlı, Mirzəqurbanlı, Qədimkənd, Aşağı Surra kənd orta məktəblərinin pedaqoji kollektivlərinin göstəriciləri daha uğurlu olmuş və məhz bu məktəblərin məzunlarından ali məktəblərə qəbul olanlar çoxluq təşkil etmişdilər. Göründüyü kimi, Neftçalada təhsilə göstərilən diqqətin nəticəsində həm müəllimlərin, həm də onların yetirmələrinin uğurları ürəkaçan olmuşdu. Bu isə öz növbəsində yaradılan şəraitin bəhrəsidi. Yəni yeni tikilən, təmir olunan məktəblər, bu məktəblərə verilən müasir avadanlıqlar, kompüter sistemləri şagird-müəllim münasibətinin düzgün qurulması son nəticəni, yəni savadlı məzunun cəmiyyətə inteqrasiya etməsinə açılan qapı olmuşdu. Bütövlükdə isə bir rayonda əldə olunan bu uğur, göstərilən bu nəticə təbii ki, Azərbaycanın ümumi ictimai sosial mühitinə verilən töhfədi.

Bu gün Neftçala rayonunda təhsillə yanaşı, səhiyyə, mədəniyyət sahələrində də müəyyən işlər görülməkdədi. Rayonda olarkən öyrəndik ki, müasir avadanlıqlarla təmin edilən poliklinika, xəstəxana və həkim məntəqələri də rayon sakinlərinin sağlamlığı keşiyində dayanmaq imkanına malikdi. Yəni bu sahədə çalışan həkimlərin peşəkarlığı, eləcə də dərman preparatları ilə təminat məsələləri də rayon rəhbərliyinin bilavasitə nəzər diqqətində saxlanılır. Vaxtında aparılan müayinələr, uşaqların peyvənd edilməsi, həmçinin ölkə prezidentinin bilavasitə tapşırığı ilə sakinlərin pulsuz müayinədən keçirilməsi problemləri Neftçalada da uğurla aradan qaldırılmaqdadı. İndi demək olar ki, rayonun özünün səhiyyə imkanları, həkim personalları buradan digər rayonlara, eləcə də paytaxta xəstələrin üz tutması hallarının sayını xeyli azaldıb. Adamlar yerli həkimlərə, yerli şəraitə daha çox güvənməyə başlayıbdı.

Bəli, NEftçalada təhsil, səhiyyə ocaqlarının tikintisi, bərpası sahəsində görülən işlərlə bahəm mədəniyyət sahəsində də müəyyən addımlar atılır. Keçirilən kütləvi tədbirlər, bayram şənlikləri, mədəniyyət işçiləirinə göstərilən diqqət, insanların mədəni həyatının təşkili sahəsində müvafiq plana uyğun addımların atılması, rayonun tanınmış elm, mədəniyyət, incəsənət, ədəbiyyat adamları ilə görüşlər, konsertlərin təşkili və sairə rayonun ictimai həyatımının mövcud durumundan xəbər verir.

**Bu gün Azərbaycanın regionları arasında öz inkişafına görə özəl yeri olan Neftçalanın ümumi mənzərəsi daha böyük uğurların hələ qarşıda olduğundan xəbər verir.**

***Ceyhun RÜSTƏMOV***